

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 avqust 2026-cı il №57 (3059) https://mod.gov.az Qiymәti 30 qәpik


## Keçmişdən müasirliyə uzanan yol

XIX əsrin sonu və XX əsrin əvvəllərində neft bumu dövründə tikilən binalar Bakını Avropa və Şərq memarlığının sintez olunduğu bənzərsiz bir şəhərə çevirmişdir. Neoklassika, barokko, qotika və modern kimi avropa üslubları geniş yayılmışdı. Bir çox binaların tikintisində Avropadan gəlmiş, xüsusilə alman və polyak memarları iştirak edirdi. Buna görə də Bakı həmin dövrdə “Qafqazın Parisi” kimi tanınırdı. Akademik Opera və Balet Teatrı, Tağıyev Teatrı (indiki Azərbaycan Dövlət Akademik Musiqili Teatrı), Tağıyevin yaşayış sarayı (indiki Milli Azərbaycan Tarixi Muzeyi) həmin dövrün eklektika (müxtəlif üslubların sintezi) və milli-romantik üslublarında inşa edilmiş memarlıq nümunələrindəndir.

1920-1930-cu illərdə bolşevik işğalından sonra zəngin neft baronlarının klassik, barokko və eklektik saraylar tikdirmək ənənəsinə son qoyuldu. Bu dövrdə funksionallıq və sadəlik ön plana çıxdı. Bəzəksiz, kəskin həndəsi formalara malik, şüşə və betondan istifadə edilən binalar ucaldı. Mətbuat evi (indiki Azərbaycan Nəşriyyatı), Bakı Dəmiryolu vağzalı binasını misal çəkmək olar.

Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın – Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

1930-1950-ci illər İkinci Dünya müharibəsindən öncə və sonrakı dövrlərdə monumentallıq və əzəmət prioritet oldu. Əsasən milli elementlərlə Avropa klassik memarlığının sintezi yaradıldı. Şərq şəbəkələri, sütunlu fasadlar, yüksək tavanlar və zəngin bəzəklər. Azərbaycan Milli Elmlər Akademiyasının binası, Milli Kitabxana, Azərbaycan Texniki Universiteti və “stalinka” adlanan mənzillər həmin dövrün tikililəridir.

(Ardı 4-cü səhifədə)

## Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibə verib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***



**- Hörmətli cənab Prezident, Azərbaycan-Özbəkistan münasibətləri son illər dinamik şəkildə inkişaf edib və ən yüksək müttəfiqlik səviyyəsinə çatıb. Özbəkistana bu yaxınlarda gözlənilən dövlət səfəriniz ərəfəsində Siz ikitərəfli münasibətlərin hazırkı vəziyyətini və inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?**

- İki qardaş ölkə - Azərbaycan və Özbəkistan arasında münasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvi dəyərlərə, həmçinin birliyə, həmrəyliyə və xalqlarımızın əsrlərlə davam etdirdiyi, nəsildən-nəslə ötürdüyü dərin qarşılıqlı rəğbətə əsaslanır. Bu möhkəm bünövrə üzərində qurulan dövlətlərarası münasibətlər son illər misli görünməmiş inkişaf mərhələsinə qədəm qoyub, ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə yüksəlib və tamamilə yeni məzmun qazanıb.

Özbəkistan Respublikasının Prezidenti, əziz qardaşım, hörmətli Şavkat Miromonoviç Mirziyoyev ilə mənim aramda mövcud olan səmimi dostluq, qarşılıqlı hörmət və etimad Azərbaycan-Özbəkistan qardaşlığının möhkəmlənməsində, dövlətlərarası əlaqələrin hazırkı səviyyəyə qaldırılmasında və müttəfiqliyimizin inkişafında xüsusi rol oynayır. Prezident Mirziyoyevin ölkələrimiz arasında qardaşlıq, birlik və müttəfiqlik naminə yorulmaz və qətiyyətli fəaliyyəti ona Azərbaycanda dərin hörmət və rəğbət qazandırıb.

Artıq qeyd etdiyim kimi, dövlətlərimiz arasında siyasi dialoq çox yüksək səviyyədədir. Sözsüz ki, son beş ildə ən yüksək səviyyədə müntəzəm 15 qarşılıqlı səfər və sıx təmaslarımız bu əlaqələrin dinamik inkişafı və möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Bu, son beş ildə mənim üçüncü dövlət və ümumilikdə qardaş ölkəyə yeddinci səfərimdir. Gözəl və bənzərsiz Özbəkistana səfər etməkdən daim böyük məmnunluq duyuram və hər səfər mənim üçün xüsusi əhəmiyyətə malikdir. Ənənəvi olaraq bu səfərlər müstəsna qonaqpərvərlik, qardaşlıq, səmimiyyət və qarşılıqlı anlaşma mühitində baş tutur. Qardaş Özbəkistana səfərlərimdə məni ən çox sevindirən son illərdə ölkənin bütün sahələrdə sürətli inkişafıdır. Müasir şəhərlərin salınması, iqtisadiyyatın şaxələndirilməsi, genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, elmə, təhsilə, mədəniyyətə və idmana göstərilən diqqət ölkənin yüksək inkişaf tempini əyani şəkildə nümayiş etdirir.

Özbəkistan lideri, əziz qardaşım, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin müdrik rəhbərliyi ilə ölkənin kompleks şəkildə inkişafı və tərəqqisi, həmçinin beynəlxalq nüfuzunun davamlı surətdə möhkəmlənməsi və bütün əsas sektorlarda əhəmiyyətli uğurlara nail olunması istiqamətində ardıcıl həyata keçirilən genişmiqyaslı fəaliyyət səmimi hörmət və dərin məmnunluq hissi doğurur. Bütün bunlar Prezidentin düşünülmüş siyasətinin, strateji vizyonunun və Vətənə sevgisinin, həmçinin səmərəli dövlət idarəçiliyinin nəticəsidir.

2024-cü ilin avqustunda mənim Özbəkistana dövlət səfərim, 2025-ci ilin iyulunda isə Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfəri oldu.

(Ardı 2-ci səhifədə)

## Dünyanı dəyişdirən xəfiyyə - Rixard Zorge

XX əsrin ən güclü, eyni zamanda, tanınmış, dünyada şöhrət qazanmış, xəfiyyəliyin parlaq nümunəsi, böyük uğuru hesab edilmiş Rixard Zorgenin zəngin həyat və fəaliyyəti barədə yazdığım bəzi maraqlı qeydləri qəzetimizin oxucularına çatdırıram. Siz kimsiniz Zorge? Rixard Zorge dünyanı dəyişdirən, tarixin ən çətin tapşırıqlarını yerinə yetirmiş xəfiyyədir. Qüsursuz görülmüş bir işin sahibidir. Və nəhayət, 1895-ci il oktyabrın 4-də Bakı şəhərinin Sabunçu qəsəbəsində (indiki Sabunçu rayonu) alman əsilli bir ailədə dünyaya göz açmış, kommunist ideologiyası ilə güclü “silahlanmış”, ölümündən sonra adı ölkələrdə dolaşmış bir xəfiyyədir... Xəfiyyənin Bakı şəhərində anadan olması və Azərbaycanı xatırlaması faktı da yazdığı xatirələrində qeyd edilir. Uşaq yaşlarından atasının işi ilə əlaqədar Bakıdan Berlinə köçən Zorgeyə bir daha doğulduğu ölkəni görmək qismət olmamışdı. Rixard Zorge xatirələrində Azərbaycan barədə deyirdi: “Özümü tamamilə azərbaycanlı hiss edə bilərdim, bəla burasındadır ki, azərbaycanca bir söz belə danışa bilmirəm”.



Dünyanı dəyişdirən qəhrəman xəfiyyə fəaliyyətlərini belə şərh edirdi: “Mən və mənim köməkçilərim heç vaxt zorakılığa, şantaja, satqınlığa, təxribata, terrora və başqa çirkin vasitələrə əl atmadıq. Əvəzində biz böyük yaradıcı kəşf, dərin təhlil, sərt intizamdan, nöqsansız məxfi məlumatlardan istifadə etdik”.

(Ardı 5-ci səhifədə)

## “Səninlə fəxr edirəm, matros oğlum!”

Göyərtədə küləyin üzünə vurduğu duzlu mehi hiss edəndə anlayırsan ki, bura adi hərbi hissə deyil, tamam başqa bir dünyadır. Ayağının altında torpaq yox, hər an hərəkətdə olan polad gövdə və sonsuz dərinlik var. Burada zaman saatla deyil, növbətçilik fiti, ləpələrin zərbəsi və lövbərin qalxıb-enməsi ilə ölçülür. Sahildəkilər üçün fırtına sadəcə pis hava şəraitidirsə, matros üçün o, dözümlülüyünü və döyüş hazırlığını yoxlayan canlı bir sınaqdır. Səfərlərdə ulduzlu səma altında sakitlik çökəndə insan öz daxili aləmi və Vətən anlayışı ilə baş-başa qalır.

Gəmidəki hər bir mexanizmin dilini bilmək isə bu mühitə uyğunlaşmağın əsas şərtlərindən biridir. Mavi suların ortasında qazanılan möhkəm iradə, məsuliyyət hissi və dənizçi qardaşlığı insanın yaddaşında ömür boyu silinməz iz qoyur.

Şəkildə gördüyümüz matros da yenicə Hərbi Andı qəbul edib. Onun qarşıda duran hərbi xidmətin öhdəsindən layiqincə gələcəyi baxışlarından hiss olunurdu. Sanki bu anı çoxdan gözləyirmiş kimi atası ilə söhbət edirdi. Atasının oğluna baxışına nəzər salanda, onun ürəyindən keçənləri təsəvvür etmək mümkündür.

(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibə verib



(Əvvəli 1-ci səhifədə)

Bu ikitərəfli səfərlər zamanı imzalanan çoxsaylı sənədlər, xüsusən “Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə” və "Müttəfiqlik münasibətləri haqqında Müqavilə” iki müstəqil, güclü və suveren dövlətimiz arasında təbii müttəfiqliyi rəsmi olaraq möhkəmləndirdi. Bu sənədlər ölkələrimiz arasında əlaqələrin hüquqi və siyasi əsaslarını daha da gücləndirdi və əməkdaşlığımızın gələcək inkişafı üçün yeni imkanlar açdı.

Bununla yanaşı, 2023-cü ilin avqust ayında təsis edilmiş Ali Dövlətlərarası Şura Azərbaycan ilə Özbəkistan arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin dərinləşdirilməsi üçün mühüm institusional mexanizmə çevrildi. Bu platforma ölkələrimiz arasında uzunmüddətli əməkdaşlıq prioritetlərini müəyyənləşdirməyə, yeni təşəbbüslərin təşviqinə və müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin səmərəli şəkildə əlaqələndirilməsinə xidmət edir. Şuranın artıq Daşkənddə və Bakıda keçirilən iki iclası Azərbaycan-Özbəkistan münasibətlərinin yüksək inkişaf tempini, siyasi dialoqun ardıcıllığını və ölkələrimizin perspektivə hesablanmış birgə fəaliyyət əzmini nümayiş etdirir.

Bu gün siyasi münasibətlərimiz iqtisadiyyat, investisiya, sənaye, nəqliyyat, logistika, enerji, kənd təsərrüfatı, təhsil, elm, mədəniyyət və humanitar sahələrdə genişmiqyaslı əməkdaşlıq tədbirləri ilə daha da zənginləşir. Həyata keçirilən layihələr ölkələrimizin iqtisadi potensialını birləşdirməklə yanaşı, xalqlarımız arasında dostluq və qardaşlıq bağlarını daha da möhkəmləndirir.

Əminəm ki, qarşıdakı səfər də ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da genişləndirilməsi, yeni birgə təşəbbüslərin həyata keçirilməsi və müttəfiqlik münasibətlərimizin möhkəmləndirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyətə malik olacaq.

**- Azərbaycan-Özbəkistan münasibətlərinin mühüm istiqamətlərindən biri iqtisadi-ticari əməkdaşlıqdır. Bu sahədə əldə edilən uğurlar barədə nə deyə bilərsiniz?**

- İqtisadi-ticari əməkdaşlığımız son illərdə sürətli inkişaf dinamikası nümayiş etdirir. Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib. Bu, əla göstəricidir. Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb.

Üç il əvvəl 500 milyon ABŞ dolları məbləğində ümumi kapitalla təsis edilən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti ölkələrimiz arasında investisiya əməkdaşlığının inkişafı üçün mühüm platformaya çevrilib. Şirkət həm Azərbaycanda, həm də Özbəkistanda iqtisadiyyatın müxtəlif sektorlarında perspektivli layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə əhəmiyyətli töhfə verir.

Bundan əlavə, Hökumətlərarası Komissiya iqtisadi, ticari, investisiya və digər sahələrdə əlaqələrin inkişafında mühüm rol oynayır. Bu günə qədər komissiyanın 15 iclası keçirilib. Bu yaxınlarda Daşkənddə keçirilən son iclasda Azərbaycan-Özbəkistan iqtisadi-ticari əməkdaşlığının mövcud vəziyyəti, qazanılan nailiyyətlər və inkişafın gələcək istiqamətləri ətraflı müzakirə olunub.

Həmçinin energetika sektorunda əməkdaşlığımız fəal şəkildə inkişaf edir. Özbəkistanın OZLITINEFTGAZ institutu və “SOCAR NIPI Neftegaz”ın bazasında yaradılan “Neftegaztexnologiya” birgə müəssisəsi 2016-cı ildən bəri neft-qaz sahəsində uğurla fəaliyyət göstərir. Bundan əlavə, 2024-cü ildə yaradılan SOCAR və “Özbəknefteqaz” SC arasında birgə müəssisə olan “Turan Energy AFEZCO” “Azərikimya” İstehsalat Birliyi tərəfindən istehsal olunan yüksəktəzyiqli polietilenin Özbəkistana ixracını həyata keçirir.

Yaşıl enerji sahəsində əməkdaşlığımız da davam edir. 2025-ci ildə Azərbaycan, Qazaxıstan və Özbəkistanın müvafiq energetika idarələri tərəfindən Bakıda “Yaşıl Dəhliz Birliyi” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub. Bu birgə müəssisə Azərbaycan-Mərkəzi Asiya yaşıl enerji dəhlizi layihəsinin həyata keçirilməsini, bərpaolunan enerji ixracını və onun Xəzər dənizinin dibi ilə nəqli imkanlarını əlaqələndirmək məqsədilə yaradılıb.

İki ölkə arasında tranzit daşımalarında artım müşahidə olunur. 2025-ci ildə daşımaların həcmi 6,7 faiz artıb və 1,4 milyon tona çatıb. Bu ilin yanvar-iyun aylarında da 12,2 faizlik artım qeydə alınıb və həmin göstərici 675 min ton təşkil edib.

Özbəkistan tərəfi ilə həyata keçirilən bir sıra birgə layihələr ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinə və yeni inkişaf imkanlarının yaradılmasına əhəmiyyətli töhfə verir. Işğaldan azad edilmiş Füzuli rayonunda “Dostluq bağı” adlandırılan 100 hektarlıq nar bağının salınmasını, həmçinin “Chevrolet” və “Isuzu” markalı avtomobillərin istehsalı sahəsində əməkdaşlığı bu istiqamətdə xüsusi qeyd etmək olar. Arayış üçün deyə bilərəm ki, 2026-cı il iyulun 13-nə olan məlumata görə, ümumilikdə “Chevrolet” markalı 10 min 720 avtomobil və “Isuzu” markalı 275 avtobus istehsal edilib.

Hazırda ölkəmizdə Özbəkistan investisiyalı 130-dan çox kommersiya təşkilatı qeydiyyatdan keçib və onlar müxtəlif iqtisadi sektorlarda - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərirlər. Özbək şirkətlərinin Azərbaycanda fəaliyyəti ölkələrimiz arasında qarşılıqlı etimadın, əlverişli investisiya mühitinin və güclü iqtisadi tərəfdaşlığın göstəricisidir.

Azərbaycan ilə Özbəkistanın iqtisadi imkanları bir-birini tamamlayır və yeni əməkdaşlıq formatlarının yaradılması üçün geniş üfüqlər açır. Biz Azərbaycan şirkətlərinin Özbəkistanda və özbək şirkətlərinin Azərbaycanda daha fəal iştirakını, həmçinin birgə istehsal və investisiya layihələrinin sayının artmasını dəstəkləyirik.

Azərbaycan da Özbəkistanda investisiya layihələri həyata keçirir. Bu layihələr arasında “PASHA Holding” tərəfindən “The Ritz-Carlton” brendi altında Daşkənddə inşa edilən hotel və yaşayış kompleksini, həmçinin Daşkənd vilayətində “Sea Breeze Uzbekistan” böyük turizm və yaşayış kompleksini qeyd etmək olar.

Əminəm ki, qarşılıqlı faydaya əsaslanan iqtisadi tərəfdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək, yeni təşəbbüslərlə zənginləşəcək və Azərbaycan-Özbəkistan müttəfiqlik münasibətlərinin mühüm sütunlarından biri kimi xalqlarımızın rifahına xidmət edəcək.

**- Sizin fikrinizcə, mədəni diplomatiya Azərbaycan-Özbəkistan dövlətlərarası əlaqələrinin möhkəmlənməsində hansı rolu oynayır?**

- Azərbaycan ilə Özbəkistan arasında ortaq köklərə, dil və mədəni yaxınlığa, əsrlər boyu formalaşan mənəvi dəyərlərə əsaslanan mədəni və humanitar əməkdaşlıq münasibətlərin ayrılmaz və vacib sahəsidir. Bu sahədə həyata keçirilən əməkdaşlıq xalqlarımız arasında qarşılıqlı anlaşmanın, etimadın, dostluğun və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə mühüm töhfə verir, humanitar əlaqələri yeni məzmunla zənginləşdirir.

Xalqlarımızın qarşılıqlı səyləri və dövlətlərimizin birgə dəstəyi sayəsində son illərdə mədəni-humanitar əlaqələr uğurla inkişaf edir. Birgə keçirilən mədəniyyət günləri, incəsənət festivalları, elmi konfranslar, ədəbi nəşrlər və təhsil proqramları iki ölkə arasında mədəni və humanitar gündəliyin möhkəmlənməsində xüsusi rol oynayır.

2023-cü və 2025-ci illərdə Azərbaycan Özbəkistan Mədəniyyət Günlərinə, 2024-cü ildə Özbəkistan Azərbaycan Mədəniyyəti Günlərinə ev sahibliyi edib, həmin il Xivə şəhərində “Şuşa Günləri” keçirilib. Özbəkistandan gələn geniştərkibli nümayəndə heyəti Bakıda keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsində iştirak edib.

Biz fəxr edirik ki, qardaş ölkəmizin ən qədim və nüfuzlu ali təhsil müəssisələrindən biri olan Özbəkistan Milli Pedaqoji Universiteti dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır.

Keçən il əziz qardaşım Prezident Şavkat Miromonoviçlə birlikdə Bakının mərkəzində təməlini qoyduğumuz 5 hektar sahəsi olan “Özbəkistan” parkı qardaşlığımızın daha bir rəmzinə çevriləcək.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən təşəbbüslər və layihələr iki ölkə arasında mədəni və humanitar əməkdaşlığın genişləndirilməsində böyük əhəmiyyəti malikdir.



Təhsil sahəsində əməkdaşlıq Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar tərəfdaşlığın aparıcı sahələrindən biri kimi çıxış edir. 2025-2026-cı tədris ilində Özbəkistanın 67 vətəndaşı Azərbaycanda, Azərbaycanın 176 vətəndaşı isə Özbəkistanda təhsil alıb.

Özbəkistanın təşəbbüsü ilə inşa edilən və Füzuli şəhərində fəaliyyət göstərən Mirzə Uluqbəy adına orta məktəb təhsil sahəsində əməkdaşlığın ən parlaq nümunələrindən biridir və ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin daha bir təzahürüdür. Bu nəcib təşəbbüsə, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə bərpa və tikinti işlərinə göstərilən dəstəyə görə bütün Özbəkistan xalqına və şəxsən Prezident Şavkat Mirziyoyevə səmimi minnətdarlığımızı bildiririk.

Bundan əlavə, media sektorunda əməkdaşlıq mühüm nəticələrlə yadda qalıb. 2024-cü il sentyabrın 23-25-də Daşkənddə 1-ci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda 2-ci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. 2023-cü ildə Füzulidə 1-ci Azərbaycan-Özbəkistan QHT Əməkdaşlıq Forumu, 2024-cü ildə isə Daşkənddə 2-ci Özbəkistan-Azərbaycan QHT Əməkdaşlıq Forumu təşkil olunub. Bu forumların praktik nəticəsi olaraq, 2026-cı ildə iki qardaş ölkə birlikdə ilk dəfə QHT-lər üçün qrant müsabiqəsi elan edib. Həmin müsabiqənin nəticələrinə əsasən, Azərbaycandan qalib layihələr Özbəkistanda, Özbəkistandan qalib layihələr isə Azərbaycanda həyata keçiriləcək.

Özbəkistandan Azərbaycana turist səfərlərində artım müşahidə olunur. Ölkəmizi 2024-cü ildə 46 min, 2025-ci ildə 62 min, 2026-cı ilin yanvar-avqust aylarında isə 44 min Özbəkistan vətəndaşı ziyarət edib.

Regionlararası əməkdaşlığın uğurlu inkişafını xüsusi qeyd etmək olar. Bakı-Daşkənd, İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokənd, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşmış şəhər və tərəfdaşlıq münasibətləri qurulub. Naxçıvan və Ürgənc arasında yaxın vaxtlarda qardaşlaşmış şəhər münasibətlərinin qurulması planlaşdırılır. Bu gün xalqlarımızı daha da yaxınlaşdıran, ortaq tarixi, mədəni və mənəvi dəyərləri qoruyan, gələcək nəsillər arasında dostluğu və qarşılıqlı etimadı gücləndirən əməkdaşlıq üçün mühüm platformalardan biri olan Azərbaycan ilə Özbəkistan arasında qardaşlaşmış şəhər təşəbbüsləri xüsusilə əhəmiyyətlidir.

Beləliklə, Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar əməkdaşlıq təkcə ikitərəfli münasibətlərin vacib sahəsi deyil, həm də ortaq dəyərlərimizi, zəngin mədəni irsimizi və xalqlarımız arasındakı qardaşlıq bağlarını qoruyan gələcəyə yönəlmiş strateji humanitar körpüdür.

**- Hörmətli cənab Prezident, Azərbaycan və Özbəkistan beynəlxalq platformalarda da səmərəli əməkdaşlıq edir. Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində bu əməkdaşlığı necə qiymətləndirirsiniz və Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın inkişaf perspektivləri barədə nə deyə bilərsiniz?**

- Ölkələrimizin həm ikitərəfli, həm də çoxtərəfli formatlarda mühüm məsələlərin həlli üzrə birgə səyləri yüksək qiymətə layiqdir. İki qardaş ölkənin - Azərbaycanın və Özbəkistanın bütün məsələlərdə bir-birini daim dəstəkləməsi faktı qürur hissi doğurur.

Azərbaycan ilə Özbəkistan arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirildi.

(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibə verib

(Əvvəli 2-ci səhifədə)

Təşkilat çərçivəsində əməkdaşlığa dair əsas məsələlər müzakirə edildi və TDT-nin möhkəmləndirilməsi, Türk dünyasında daha sıx birliyin təmin edilməsi, onun siyasi, iqtisadi və hərbi gücünün artırılması, həmçinin qlobal arenada təsir və güc mərkəzinə çevrilməsi məqsədilə bəyannamələr imzalandı.

Azərbaycan və Özbəkistan TDT-ni təkcə dövlətlərarası əməkdaşlıq platforması kimi deyil, həm də ortaq tariximizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi gələcəyə daşıyan mühüm birlik kimi dəyərləndirir.

Azərbaycanın və Özbəkistanın TDT daxilində siyasi dialoqun, iqtisadi əlaqələrin, nəqliyyat və logistika imkanlarının, təhsil, elm və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişafına verdikləri töhfə türk dövlətləri arasında inteqrasiyanın daha da dərinləşməsinə xidmət edir.

Əməkdaşlığımız, xüsusən də nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyətimiz böyük perspektivlər vəd edir. Azərbaycan Cənubi Qafqazda, Özbəkistanın isə Mərkəzi Asiyada mövqeyi ölkələrimizi Şərqlə Qərbi birləşdirən mühüm strateji marşrutlarda təbii tərəfdaşlara çevirir. Bu baxımdan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta Dəhliz və TRIPP ilə inteqrasiyası bütün region üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq.

Azərbaycan ilə Özbəkistanın ortaq türk irsinin qorunması və təşviqi istiqamətində həyata keçirdikləri təşəbbüslər bu böyük mənəvi irsin gələcək nəsillərə ötürülməsi baxımından misilsiz əhəmiyyətə malikdir.

Ölkələrimiz digər türk təşkilatları çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət verir. Özbəkistanın 2025-ci ilin may ayında Türk Mədəniyyəti və İrsi Fondunun tamhüquqlu üzvü qəbul edilməsi əhəmiyyətli və dərin məmnunluq doğuran hadisə oldu. Zəngin tarixi irsə, qədim dövlətçilik ənənələrinə və özünəməxsus mədəni dəyərlərə malik Özbəkistanın bu Fonda qoşulması Türk dünyasının ortaq irsinin qorunması və təşviqi sahəsində əməkdaşlıq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

Beləliklə, ölkələrimizin TDT, həmçinin digər türk təşkilatları çərçivəsində fəal əməkdaşlığı Türk dünyasının daha sıx inteqrasiyasına və beynəlxalq arenada vahid mövqeyinin möhkəmlənməsinə töhfə verməyə davam edəcək.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərinə gəldikdə qeyd etmək lazımdır ki, son illərdə bu əlaqələr müttəfiqlik, strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında dinamik şəkildə inkişaf edib. Tarixi və mədəni yaxınlıq, ortaq mənəvi dəyərlər kimi mühüm amillər Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında mövcud əlaqələrin möhkəm təməlini təşkil edir.




Azərbaycan Mərkəzi Asiya ölkələri ilə siyasi dialoqun genişləndirilməsinə, iqtisadi əlaqələrin dərinləşdirilməsinə, nəqliyyat və kommunikasiya imkanlarının artırılmasına, həmçinin enerji və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Bu baxımdan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri regional əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi və birgə təşəbbüslərin müzakirəsi üçün çox vacib nüfuzlu platformalardan biridir.

Keçən ilin noyabrında Daşkənddə Özbəkistanın sədrliyi ilə keçirilən 7-ci Məşvərət Görüşündə Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində tamhüquqlu iştirakı ilə bağlı qərar qəbul edildi. Bu prosesdə göstərdikləri dəstəyə görə Özbəkistan Respublikasının Prezidentinə, həmçinin Mərkəzi Asiyanın digər dövlət başçılarına bir daha səmimi təşəkkürümü bildirirəm.

Azərbaycanın bu prosesə fəal qoşulması nəticəsində əvvəllər “C5” adlanan əməkdaşlıq formatı faktiki olaraq “C6” formatına çevrilib, regional dialoq və strateji tərəfdaşlıq isə yeni məzmun və miqyas qazanıb.

Azərbaycanın bu formatda tamhüquqlu iştirakı ölkəmizin Mərkəzi Asiya ilə münasibətlərə verdiyi strateji əhəmiyyəti nümayiş etdirir. Məşvərət görüşləri çərçivəsində aparılan diskussiyalar region ölkələri arasında qarşılıqlı etimadı daha da gücləndirməyə, yeni əməkdaşlıq sahələrini müəyyənləşdirməyə və regional inkişaf naminə mühüm təşəbbüslərin həyata keçirməyə imkan verir.

Həmçinin Azərbaycanın bu formatda iştirakı ölkəmizin regionlararası əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfənin göstəricisidir. Bu platforma çərçivəsində yaradılmış dialoq və əməkdaşlıq mexanizmləri təkcə dövlətlərarası münasibətlərin inkişafına deyil, həm də Avrasiya məkanında sülhün, sabitliyin və davamlı tərəqqinin təmin olunmasına xidmət edir.

Beləliklə, Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında formalaşan hərtərəfli əməkdaşlıq qarşılıqlı hörmət, etimad və ortaq maraqlar üzərində qurulmuş strateji tərəfdaşlığın nümunəsidir.

Azərbaycan və Özbəkistan, həmçinin üzv və iştirakçı olduqları bütün beynəlxalq təşkilatlarda və çoxtərəfli platformalarda, xüsusən də BMT, İƏT, TDT, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlıq edir.

**- Hörmətli cənab Prezident, maraqlı və məzmunlu müsahibəyə görə Sizə təşəkkür edirəm. Özbəkistana dövlət səfəriniz ərəfəsində Siz qardaş xalqa nə arzu etmək istərdiniz?**

- Bu gözəl imkandan istifadə edərək, qardaş Özbəkistan xalqını ölkənin dövlət müstəqilliyinin qarşıdan gələn 35-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik etmək, dərin hörmətimi və ən xoş arzularımı çatdırmaq, sülh, əmin-amanlıq, tərəqqi və yeni-yeni nailiyyətlər arzulamaq istərdim.

## *Həftənin fotosu*

## “Səninlə fəxr edirəm, matros oğlum!”



(Əvvəli 1-ci səhifədə)

Sanki ata oğluna belə deyir: “Oğlum, sən artıq Vətənin keşiyində duran əsgərsən. Bu gün sənin həyatında ən mühüm və yaddaqalan günlərdən biridir. Vətən qarşısında qəbul etdiyin Hərbi Anda daim sadiq qal və üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetir. Artıq sən Azərbaycan Ordusunun əsgəri, Hərbi Dəniz Qüvvələrinin sıralarında xidmət edən bir matrossan. Bu adın məsuliyyətini hər zaman dərk et. Xidmət müddətində intizamlı ol, komandirlərinin tapşırıqlarını vaxtında yerinə yetir və qarşına çıxan hər işi öyrənməyə çalış. Dənizdə xidmət xüsusi diqqət tələb edir. Ona görə də sənə həvalə olunan hər bir vəzifəyə ciddi yanaş. Gəmidə hər bir işin öz qaydası və məsuliyyəti var. Öyrəndiyin hər yeni bilik gələcək xidmətində sənə kömək edəcək. Silahdaşlarınla hörmət və mehribanlıqla davran, çətin anlarda bir-birinizə dayaq olun. Qarşına çıxan çətinliklərə görə ruhdan düşmə. Unutma ki, hər bir çətinlik səni daha da möhkəmləndirir.

Hərbi xidmət dövründə qazandığın bilik və bacarıqları gələcək həyatında da dəyərləndirəcəksən. Hər zaman davranışlarınla ailəmizin, xidmət etdiyin hərbi hissənin və Azərbaycan Ordusunun adını uca tut. Biz səninlə fəxr edirik və inanırıq ki, Hərbi Dəniz Qüvvələrində xidmətini layiqincə başa vuraraq ailəmizə alnıaçıq və qürurla qayıdacaqsan. Səninlə fəxr edirəm, matros oğlum!”.

Atasının məsləhətlərini dinləyən bu gənc matros artıq Azərbaycan Ordusunun, Azərbaycan xalqının və ölkəmizin ərazi sularının müdafiəçilərindən biridir. Qarşıda onu qürurverici günlər, yeni vəzifələr və müxtəlif sınaqlar gözləyir. Dənizdə xidmət ondan ayıq-sayıqlıq, hərbi intizam, səbir və möhkəm iradə tələb edəcək. Əminik ki, o, hər bir tapşırığa ciddi yanaşacaq, silahdaşları ilə bərabər xidmət edəcək. Qəbul etdiyi Hərbi Anda sadiq qalaraq Vətənin müdafiəsində mərd dayanacaq, ona göstərilən etimadı doğruldacaq. Matrosa xidmətində uğurlar arzulayır, qarşısına çıxacaq bütün sınaqlardan üzüağ çıxmasını və xidmətini qürurla başa vurmasını arzu edirik.

**Kapitan**
**Əli ABIYEV**
**“Azərbaycan Ordusu”**

## *Hərbi yeniliklər*

## Radarda görünməyən stels tipli təyyarə nədir?

Radar və elektro-optik aşkarlama sistemlərinə qarşı görünmə qabiliyyəti aşağı olan stels tipli təyyarə sistemləri hansılardır və onların xüsusiyyətləri nələrdir?

Stels tipli təyyarə radar sistemləri tərəfindən aşkarlana bilməyən və ya aşkarlanması çox çətin olan təyyarələr üçün istifadə edilən bir termindir. Bu təyyarələrin radar sistemləri tərəfindən aşkarlanmasının qarşısını almaq üçün xüsusi sistem və texnologiyaların istifadə olunduğu radara görünmə qabiliyyətinin aşağı olması təmin edilərək, mümkün qədər gec aşkarlanması hədəflənir.

Stels tipli təyyarə anlayışı radar və infraqırmızı görüntüləmə sistemləri kimi aşkarlama sistemlərinin effektivliyini azaldacaq xüsusi texnologiyalar və metodları özündə birləşdirən təyyarələrə aiddir. Bu təyyarələr radar və elektro-optik görüntüləmə sistemləri tərəfindən aşkarlanmadan və ya aşkarlanmasını gecikdirərək, təyin olunmuş tapşırıqları yerinə yetirir.

Heç bir təyyarə radar üçün tamamilə görünməz olmasa da, stels tipli təyyarələr adi radarların təyyarəni effektiv şəkildə aşkar etməsini və ya izləməsini çətinləşdirir, bu da təyyarənin düşmən radarı tərəfindən aşkarlanmaması və ya radarla idarə olunan silahlar tərəfindən uğurla hədəfə alınmaması ehtimalını artırır.

Stels tipli təyyarələr düşmən sensorlarının aşkar etmək, izləmək və ya hücum etmək qabiliyyətini azaltmaq üçün xüsusi texnologiyalardan ibarət kompleks dizayn fəlsəfəsindən istifadə edir.

**Stels tipli təyyarələrin dizaynı**

Uçuşun bütün adi tələblərinə əlavə olaraq, stels tipli və ya aşağı radara görünmə qabiliyyətinə malik bir təyyarənin dizaynı radar və ya infraqırmızı (termal) aşkarlanmanı azaltmağı hədəfləyir, bu məqsədlərə aşağıdakılar daxildir:



- Mühərrikdən və eqzos çıxışından qaynaqlanan termal infraqırmızı emissiyanı azaltmaq,
- Hava platformasının gövdəsini formalaşdıraraq, düşmən qəbuledicisinə geri əks olunan radar əksetməsini azaltmaq,
- Radar uducu materiallar (RAM) və ya plastik kimi radar keçirici materiallardan istifadə etməklə, təyyarənin gövdəsindən radar əksetmələrini azaltmaq,
- Kokpit, silah bölməsi və mühərrik giriş kanalları kimi açıq daxili səthlərdəki radar aşkarlanmasını azaltmaq,
- Əlverişsiz hava şəraitində infraqırmızı və radar aşkarlanmasını azaltmaq.

tels tipli təyyarələr ilk olaraq düşmən dərinliklərindəki hədəflərin müvəffəqiyyətlə məhv edilməsini təmin etmək üçün hazırlanıb. Bu səbəbdən düşmənin hava hücumundan müdafiə təhlükəsindən qaçmaq, radar və elektro-optik sistemlərlə aşkar edilərək, düşmən qüvvələrinin erkən xəbərdar edilməməsi üçün inkişaf etdirilən texnologiyalar ilk növbədə bombardmançı təyyarələrdə yer alıb.

Bu gün radar və elektro-optik sistemlərə qarşı hazırlanmış aşağı görünmə texnologiyaları döyüş təyyarələrinin dizaynında standart halına gəlir, F-22, F-35, “Su-57”, J-20, J-31 kimi xarici dövlətlər tərəfindən hazırlanmış çoxfunksiyalı döyüş təyyarələri və TUSAŞ tərəfindən hazırlanan Milli Döyüş Təyyarəsi “Kaan”, “Anka-3” kimi sistemlərdə mövcuddur.

**Ordu.az**

# Bakıda Azərbaycan-Qazaxıstan hərbi mütəxəssisləri görüşüblər







Azərbaycan və Qazaxıstan respublikalarının Müdafiə nazirlikləri arasında "Hərbi əməkdaşlıq sahəsində perspektivlərin müzakirə edilməsi üzrə qərargah danışıqları" keçirilib.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə hər iki ölkə arasında hərbi əməkdaşlığın cari vəziyyəti, gələcək perspektivləri və bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə, həmçinin 2027-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planının layihəsinə baxılıb, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

# Keçmişdən müasirliyə uzanan yol

**(Əvvəli 1-ci səhifədə)**

1960-1980-ci illər sənayeləşmənin artması ilə yaşayış böhranını həll etmək üçün xruşşovkalar və panelli yaşayış massivləri, mikrorayonlar inşa edildi.

Lakin 1970-80-ci illərdə unikal modern binalar da ucaldıldı. Gülüstan sarayı, Heydər Əliyev sarayı (keçmiş Lenin sarayı), "Nizami", "Elmlər Akademiyası" metrostansiyalarını nümunə göstərmək olar.

1994-cü ildə "Əsrin müqaviləsinin imzalanması və neft gəlirlərinin artması ilə Bakıda tikinti bumu başladı. Şəhərin siması ultra-müasir, futuristik binalarla zənginləşdi. Heydər Əliyev mərkəzi, Alov Qüllələri, Xalça Muzeyi, Ağ Şəhər layihəsi.



2026-cı il şəhərsalma və memarlıq sahəsində mühüm yeniliklərə diqqət yetirmək, şəhərin gələcəyini düşünmək və insanların daha rahat yaşayış mühiti üçün yeni yanaşmaları təşviq etmək baxımından əlamətdar bir dövrdür. Müasir dünyada sürətli urbanizasiya şəhərlərin planlaşdırılmasını və memarlıq həllərini daha da vacib edir. Şəhərsalma dedikdə binaların və yolların yerləşdirilməsi deyil insanların rahatlığı, nəqliyyatın təşkili, yaşıllıq sahələrinin qorunması, ekoloji təhlükəsizlik və sosial ehtiyaclar nəzərdə tutulur. Düzgün planlaşdırılmış infrastruktur sağlam və əlverişli həyat şəraiti yaradır. Memarlıq isə şəhərin görünüşünü və mədəni simasını formalaşdıran əsas amillərdən biridir. Müasir memarlıq texnologiya və innovasiyalardan istifadə etməklə yanaşı, tarixi irsin qorunmasına da diqqət yetirməlidir. Tarixi binaların və milli memarlıq nümunələrinin qorunması gələcək nəsillərin öz mədəni keçmişini tanımasına imkan verir. Bu mövzu Azərbaycanın şəhərləri üçün də xüsusi əhəmiyyət daşıyır. Bakı kimi qədimlik və müasirliyin bir arada olduğu şəhərdə tarixi abidələrin qorunması, yeni tikililərin ümumi görünüşə uyğunlaşdırılması və yaşıllıq ərazilərin artırılması mühüm məsələlərdəndir. Azərbaycan zəngin tarixi və mədəni irsi ilə şəhərsalma və memarlıq sahəsində unikal tikililər ölkəsidir. Coğrafiyamızın müxtəlif bölgələrində qədim dövrlərdən qalma memarlıq nümunələri ilə birlikdə müasir dövrdə inşa edilmiş tikililər bir araya gələrək həm estetik, həm də funksional cəhətdən şəhər mühitinin inkişafına töhfə verir.

Eyni zamanda, digər şəhər və rayonların da müasir şəhərsalma prinsipləri əsasında inkişaf etdirilməsi ölkənin gələcəyi üçün əhəmiyyətlidir. Şəhərsalma və memarlıq əhalinin həyat keyfiyyətinə birbaşa təsir göstərən mühüm sahələrdir. 2026-cı ildə bu sahələrdəki davamlı inkişaf ekoloji düşüncənin, innovativ memarlığın və mədəni irsin qorunmasının əhəmiyyətini bir daha ön plana çıxarır. Gələcəyin şəhərləri yalnız gözəl binalardan deyil, rahat, yaşıl və dayanıqlı mühitdən ibarət olmalıdır.

Azərbaycan memarlığı və şəhərsalma sənəti əsrlər boyu hərbi zərurətlər, müdafiə strategiyaları və zəfər ruhu ilə sıx bağlı şəkildə inkişaf etmişdir. Ölkəmizin zəngin tikinti mədəniyyəti cəmiyyətin təhlükəsizlik ehtiyaclarını və hərbi qüdrətini əks etdirən möhtəşəm bir irsdir. İçərişəhər, Şuşa qalası, Dərbənd, Əlincə qalası və Xudafərin körpüsü kimi tarixi memarlıq nümunələri sırf hərbi-strateji tələblərə uyğun inşa edilmişdir. Hündür qala divarları, müşahidə qülləleri və ensiz dolanbac küçələr düşmənin irəliləməsini ləngitmək və müdafiəni asanlaşdırmaq məqsədi daşıyırdı. Bu gün işğaldan azad edilmiş torpaqlarda aparılan nəhəng bərpa və şəhərsalma işləri şanlı Zəfərimizin bilavasitə nəticəsidir. Ordu tərəfindən təmin edilən təhlükəsizlik zəminində modern "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyası reallaşır. Yeni layihələrdə hərbi tariximizi əbədiləşdirən Memorial Komplekslər, Zəfər parkları və işğal müzeyləri xüsusi yer tutur. Xankəndi və Bakıdakı Zəfər parkları memarlığın Vətən müharibəsindəki qəhrəmanlığı salnaməsini necə yaratdığının bariz nümunəsidir.

Azərbaycanın şəhərsalma tarixi keçmişdə qalalarla müdafiə olunan, bu gün isə ordumuzun zəfəri sayəsində dirçələn və müasirləşən mühəndislik, incəsənət və hərbi gücün vəhdətidir. Tarixdə şəhərlərin inkişafına və halhazırda baş verən proseslərə nəzər yetirilərsə, şəhərlərin artıq bir neçə binadan və ictimai yerdən ibarət sadə bir zona yox, əksinə mürəkkəb və davamlı dəyişən, dinamik və yaşayan bir orqanizm olduğu görülə bilər. Şəhər insanların gündəlik həyat tərzini, dünyagörüşünü və mədəniyyətini formalaşdıran canlı bir orqanizmdir.

Danılmaz bir həqiqət də var ki, ölkəmizdə şəhərsalma və memarlıq ənənələri əsrlərin sınağından çıxmış zəngin tarixə söykənir. İpək yolunun üzərində yerləşən Azərbaycan tarixən ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi kimi tanınıb. Şərq ölkələri ilə qurulan sıx iqtisadi, siyasi və mədəni əlaqələr iri şəhərlərimizin formalaşmasına güclü təsir edib. Məhz bu əlaqələrin nəticəsində yaranan memarlıq abidələri şəhərlərimizin simasını müəyyənləşdirən əsas amillərdən birinə çevrilib.

Azərbaycan şəhərləri tarix boyu təbii-coğrafi şəraitə və sosial tələbatlara uyğun şəkildə formalaşıb. Dar küçələr, kölgəli həyətlər və milli memarlıq üslubu insan rahatlığını ön plana çəkib. Zaman keçdikcə artan əhali, nəqliyyat sıxlığı və urbanizasiya yeni şəhərsalma yanaşmalarını zəruri edib. Geniş prospektlər, abadlaşdırılan parklar və müasir yaşayış kompleksləri həmin dəyişikliklərin nümunəsidir.



Son illər həyata keçirilən yenidənqurma və abadlıq işləri şəhər mühitinə yeni nəfəs gətirib. Paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir memarlıq layihələrinin icrası diqqət çəkir. Lakin əsas məsələ sadəcə yeni binaların tikilməsi deyil, tarixi irsin qorunması ilə müasirliyin uzlaşdırılmasıdır. Məhz bu balans şəhərin simasını saxlayır və onu gələcək nəsillər üçün qoruyur.

Memarlığa gəlincə, bu gün Azərbaycanın müxtəlif bölgələrində dövlət tərəfindən mühafizə edilən çoxsaylı abidələr mövcuddur. Müdafiə qalaları, karvansaralar, məscidlər, məbədlər və türbələr milli memarlıq ənənələrinin əyani nümunələridir. Bədii və memarlıq baxımından yüksək səviyyədə inşa olunmuş bu nümunələr hər zaman qürur hissi doğurur. Möminə xatun türbəsi, Xudafərin körpüsü və Atəşgah kompleksi dünya əhəmiyyətli abidələr sırasında xüsusi yer tutur. Bu daş əsərlər Azərbaycan memarlığının zənginliyini və özünəməxsusluğunu nümayiş etdirən nadir incilərdir. UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş abidələrimiz Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya miqyasında tanındığını göstərir. Qədim və Orta əsr şəhər mədəniyyətini yaşadan İçərişəhər və Şirvanşahlar sarayı kompleksi bu irsin əsas nümunələrindəndir. Əsrlərə sinə gərmiş Qız qalası indi də əzəmətini qoruyur. Şəkinin tarixi mərkəzi və Xan sarayı isə milli memarlıq zövqünün nadir örnəkləri kimi diqqət çəkir. Azərbaycan memarlıq məktəbinin zirvəsində isə dahi sənətkar Əcəmi Naxçıvani dayanır. Onun yaradıcılığı təkcə ölkəmizdə deyil, bütün Yaxın Şərqdə orta əsr memarlığının inkişafına güclü təsir göstərib. UNESCO çərçivəsində 900 illiyi qeyd olunan bu böyük şəxsiyyətin əsərləri dövrünün yüksək sənətkarlıq səviyyəsini aydın şəkildə nümayiş etdirir. Azərbaycan şəhərləri qlobal şəhərsalma modellərindən bəhrələnsə də, öz tarixi, mədəni və coğrafi xüsusiyyətlərini qoruyaraq inkişaf yolunu davam etdirir. Məhz bu inkişafın ardıcıl və sistemli şəkildə davam etdirilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bu, təbii ki, xüsusi əhəmiyyət daşıyır və şəhər mühitinin daha planlı qurulmasına, memarlıq irsinin qorunmasına əlavə imkanlar açmaqla, daha geniş şərait yaradacaq.

Şəhərsalmanın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu sahədə buraxılan səhvləri çox vaxt düzəltmək olmur. İnfrastruktur düzgün qurulmadıqda və məkan real ehtiyaclara uyğun planlanmadıqda sonradan bu boşluqları aradan qaldırmaq çətinləşir. Bu isə iqtisadi baxımdan məhsuldarlığın azalması, əlavə ictimai xərclərin artması və uzunmüddətli vaxt itkisi ilə nəticələnir.

Bu gün Azərbaycanın şəhərlərinə baxarkən keçmişlə gələcəyin bir nöqtədə qovuşduğunu görmək mümkündür. Qədim qala divarları ilə əhatələnmiş İçərişəhərdən tutmuş şüşə və metal konstruksiyaları ilə seçilən müasir binalara qədər hər detal şəhərsalmanın inkişaf etdiyini göstərir. Ölkədən kənarda yaşayan vətəndaşlarımız hər dəfə Vətənə gəldikdə şəhərin günü-gündən dəyişdiyini, gözəlləşdiyini deyillər.

**Sevda AŞIROVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan və Özbəkistan müdafiə nazirlikləri arasında ideoloji iş və psixoloji xidmət sahələrində təcrübə mübadiləsi üzrə işçi görüşü keçirilib

*Özbəkistan Respublikasının Daşkənd şəhərində Azərbaycan və Özbəkistan müdafiə nazirlikləri arasında ideoloji iş və psixoloji xidmət sahələrində təcrübə mübadiləsi məqsədilə işçi görüşü keçirilib.*






Çıxış edənlər gənc nəslin vətənpərvərlik ruhunda formalaşması, milli-mənəvi dəyərlərin qorunması, hərbi xidmət və döyüş əməliyyatları zamanı psixoloji dözümlülüyün gücləndirilməsindən danışıb, qarşılıqlı müzakirələr aparıblar. Məruzələrdə həmçinin sözügedən keyfiyyətlərin artırılmasında müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

Tədbirdə xalqlarımız arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişaf etdirilməsi, tarixi və folklor köklərinin yaşadılması istiqamətində birgə mədəni-kütləvi tədbirlərin, konsert proqramlarının və musiqi festivallarının təşkili məsələləri vurğulanıb.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Özbəkistan Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində olub. Burada Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, həmçinin Özbəkistanın mədəniyyət və incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı təqdim olunub.

Yekunda qarşılıqlı hədiyyə mübadiləsi aparılıb və xatirə fotoları çəkdirilib.







*Sovet İttifaqı Qəhrəmanı*

## Dünyanı dəyişdirən xəfiyyə - Rixard Zorge

(Əvvəli 1-ci səhifədə)

Rixard Zorge Vilhelm Zorgenin ailəsində doğulub böyüyüb və doqquz övladın sonuncusu olub. Rixardın atası Bakıya neft mədənlərində mühəndis işləməyə gəlmiş əcnəbilərdən idi. Qafqaz Neft Şirkətində çalışan Vilhelm Zorge rus əsilli Nina Semyonovna ilə evli olub. Zorge ailəsi bir neçə il Bakıda yaşadıqdan sonra yenidən Berlin şəhərinə köçür. Bakıda doğulmaq və daha sonra Berlinə yerləşmək kiçik Zorgenin həyatında təsirsiz ötüşmür. Rixardın böyük əmisi Fridrix Zorge dövrünün tanınmış ictimai-siyasi xadimləri olan Karl Marks və Fridrix Engels ilə dostluq münasibəti saxlayırdı. Bundan başqa, Rixardın babası Albert Zorge də fəal siyasi fəaliyyətlə məşğul olurdu. Kommunizm hərəkatının təbliğatında ailənin fəallığı Rixard Zorgenin gələcək siyasi dünya görüşünə güclü təsir edir.

1914-cü ildə Birinci Dünya müharibəsi başlananda Rixard həmin ilin oktyabrında könüllü olaraq cəbhəyə yollanır. Almaniya ordusunda tələbələr üçün təşkil olunmuş III topçu birliklərində xidmət etməyə başlayır. 1916-cı ilin martında Qərb cəbhəsində aparılan şiddətli döyüşlərdə iştirak edərkən ağır yaralanır. Şrapnel (hazır vurucu ünsürləri – sferik güllə, çubuq, ikili pelerin) yarası səbəbindən üç barmağı kəsilir və hər iki ayağı sınır. Rixard döyüşdə aldığı bu zədə səbəbindən həyatının sonuna kimi axsamaq məcburiyyətində qalır. Döyüşlərdə göstərdiyi şücaətə görə “kapral” (bəzi ölkələrin silahlı qüvvələrində kiçik zabit heyətində hərbi rütbə) rütbəsi alan Rixard Zorge Almaniya İmperiyasının II dərəcəli Dəmir Xaç medalına layiq görülür. O, hərbi hospitalda müalicə alarkən Karl Marksın əsərlərini oxumağa başlayır. Həyatının ən gənc dövründə kommunist fəlsəfəsi ilə daha yaxından tanış olur və müalicə aldığı hospitalda çalışan bir tibb bacısının atası vasitəsilə kommunist hərəkatına qoşulur. Rixard Zorge Almaniyanın Kiel, Berlin və Hamburq kimi şəhərlərində iqtisadiyyat üzrə təhsil alır. 1919-cu ilin avqustunda Rixard siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsini alır.

Almaniya Kommunist Partiyasına qoşulan Rixard siyasi görüşləri və fikirləri səbəbindən işlədiyi kömür mədənindən qovulur. Açıq şəkildə kommunizm ideyalarını müdafiə etməsi və Avropada ona qarşı təzyiqlərin artması nəticəsində o, Sovet Sosialist Respublikaları İttifaqına qaçmaq məcbiriyyətində qalır. Sovetlər İttifaqında xüsusi kəşfiyyat orqanları ilə əməkdaşlığa cəlb olunması Rixard Zorgenin həyatında yeni və daha mühüm bir mərhələnin başlanğıcı olur.

Moskva şəhərinə gəldikdən qısa müddət sonra Rixard Zorge xüsusi xidmət orqanlarında işlə təmin olunur. Jurnalist adı altında fəaliyyət göstərməklə Avropanın müxtəlif ölkələrinə göndərilir. Burada ona tapşırılan əsas işlərdən biri Avropada baş verə biləcək sosialist inqilabları barədə öyrənmək, kommunist qruplarla əlaqələr yaratmaq və bütün bunlar barədə mərkəzə müntəzəm şəkildə raport vermək idi.



Yaponiyaya səfəri Rixardın həyatında əsas həlledici məqamlardan biri olur. 1933-cü ildə Yaponiyaya göndərilməsi xəfiyyənin bir növ gələcək müqəddəratını müəyyənləşdirir. 1933-cü ilin mayında Rixard Zorge Yaponiyaya yola salınır. Məqsəd hər zaman olduğu kimi, getdiyi ölkədə SSRİ üçün əhəmiyyətli olan kəşfiyyat məlumatlarının toplanması və vaxtında onların mərkəzə ötürülməsi idi. Rixard Zorge Yaponiyada Ramzay kod adı altında fəaliyyət göstərir. 1933-1934-cü illər ərzində Yaponiyada Zorge tərəfindən xəfiyyə şəbəkəsi yaradılır.

Rixard Zorge Anti-komintern paktı və alman-yapon paktı barədə olan məlumatları sovet mənbələrinə ötürməkdə davam edirdi. 1941-ci ildə səfirlik işçilərinin vasitəsilə Rixard Zorge “Barbarossa” əməliyyatı barədə Moskvaya təcili raport göndərir. Sovet dövlətinin rəhbəri İosif Stalinə Yaponiyadan göndərilən gizli raport çatdırılsa da, Stalin buna əhəmiyyət vermir və Zorgenin məlumatlarına inanmır. Stalin nasistlərin belə bir səhv etməyəcəyini düşünürdü...

Kempeitai adlandırılan yapon gizli polis təşkilatı bütün Yaponiyadan xaricə göndərilən tək istifadəlik xətti mesajların izinə düşür. Başlanılan əməliyyat qısa zamanda öz nəticəsini göstərir. Rixard Zorge 1941-ci il oktyabrın 18-də Tokioda həbs olundu. Barəsində həbs qərarı çıxarılan Zorge Suqamo həbsxanasına göndərilir. O, saxlanıldığı həbsxanada 1944-cü il noyabrın 7-də Tokio vaxtı ilə 10:20-də asılaraq edam edilir. Edamdan sonra Zorgenin cəsədi saxlanıldığı Suqamo həbsxanasında məhkumlar üçün nəzərdə tutulmuş ümumi məzarlıqda dəfn olunur. Sonralar xəfiyyənin Almaniyada yaşayan anasının səyi nəticəsində cəsəd həbsxanadan çıxarılır. Nəşin yeni yeri kimi Tokionun Füçi səmtində yerləşən məzarlıq seçilir. Azərbaycanda - Bakı şəhərində doğulan və uzaq Yaponiyada kommunist əqidəsi naminə ağır işgəncələrə məruz qalan, ömrü faciə ilə sona çatan və dünyanı dəyişdirən xəfiyyənin - Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin küllərinin saxlanıldığı məzar bu gün də orada yerləşir.

1964-cü il noyabrın 5-də Rixard Zorgenin ölümünün iyirminci ildönümü ilə əlaqədar Moskvada tədbir təşkil olunur və sovet dövləti qarşısında olan müstəsna xidmətlərinə görə ona Sovet İttifaqı Qəhrəmanı adı verilir.

XX əsrin ən güclü xəfiyyələrindən biri olan Rixard Zorgenin respublikamızda xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra addımlar atılıb. 1981-ci ildə Bakı şəhərində heykəltaraş Vladimir Siqal və arxitektor Mikayıl Useynov tərəfindən Rixard Zorgenin xatirə memarlıq kompleksi inşa edilib. Kompleksə daxil olan abidə Bakı şəhərinin mərkəzində yerləşir. Bakının Nəsimi rayonu ərazisində yerləşən küçələrdən biri Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin adını daşıyır. Sabunçu rayonunda vaxtilə Zorge ailəsinin yaşadığı mənzil də Rixard Zorgenin ev muzeyi kimi qorunub.

**Lalə HÜSEYNOVA**
**“Azərbaycan Ordusu”**

# Birinci Qarabağ müharibəsinin itkin şəhidləri torpağa tapşırılıb





Birinci Qarabağ müharibəsinin itkin şəhidləri Çümşüd Məmmədov Laçın şəhəri Şəhidlər xiyabanında, Sərdar İsmayılov Neftçala rayonu Astanli kənd qəbiristanlığında, Vaqif Məhərrəmov Neftçala şəhəri Şəhidlər xiyabanında, Mürşüd Nərimanov İmişli rayonu Məzrəli kənd qəbiristanlığında, Akif Qurbanov isə Binəqədi rayonu Sulutəpə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında torpağa tapşırılıblar.

Əvvəlcə itkin şəhidlərlə vida mərasimləri olub, cənazə namazları qılınıb. Mərasimlərdə şəhidlərin ailə üzvləri, rayon icra hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Vida mərasimlərindən sonra itkin şəhidlər hərbi orkestrlərin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və yaylım atəşinin müşayiəti ilə hərbi ənənələrə uyğun olaraq torpağa tapşırılıblar.

Dəfn mərasimlərində şəhidlərin ailə üzvləri və yaxınları onların məzarları önünə gül dəstələri düzüb, ruhlarına dualar oxuyublar.

Mərasimlərdə çıxış edənlər Vətən uğrunda canından keçən igidlərimizin əziz xatirəsinin hər zaman uca tutulduğunu, onların qanının yerdə qalmadığını və Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın azad olunması sayəsində şəhidlərimizin ruhunun şad olduğunu vurğulayıblar.

* * *

Cümşüd Məmmədov 1962-ci ildə Laçın rayonunun Katos kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1992-ci ildə Laçın rayonunun Zabux kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.







* * *

Sərdar İsmayılov 1971-ci ildə Neftçala rayonunun Astanlı kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1992-ci ildə Ağdərənin Çıldıran kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

* * *

Vaqif Məhərrəmov 1971-ci ildə Neftçala şəhərində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1992-ci ildə Ağdərə rayonunun Çıldıran kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

* * *

Mürşüd Nərimanov 1963-cü ildə İmişlinin Məzrəli kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

* * *

Akif Qurbanov 1975-ci il oktyabrın 29-da Xırdalan şəhərində anadan olub. O, 1994-cü il aprelin 26-da Ağdam rayonunun Şotlanlı kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

**AZƏRTAC-ın materialları əsasında**





# "Zəngəzur dəhlizi Avrasiyanın nəqliyyat şəbəkələrində Azərbaycanın mövqeyini möhkəmləndirəcək"

*Zəngəzur dəhlizinin Cənubi Qafqazın gələcəyində strateji əhəmiyyəti artır. Bu, həm geosiyasi baxımdan, həm də nəqliyyat-logistika və enerji təşəbbüslərinin həyata keçirilməsi kontekstində özünü göstərir.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri türkiyəli beynəlxalq münasibətlər üzrə ekspert Mehmet Gökhan Özçubukçu "Fokus+" nəşrində dərc olunan məqaləsində yazıb.

Ekspert vurğulayıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpası Türkiyə, İran, Mərkəzi Asiya ölkələri və Avropa arasında münasibətlərin inkişafı üçün mühüm geoiqtisadi potensial yaradır və bunun əhəmiyyəti regionun coğrafi sərhədlərini xeyli aşır: "Buna görə də Zəngəzur dəhlizinin gələcəyini yalnız nəqliyyat layihəsi prizmasından qiymətləndirmək kifayət deyil. Bu marşrut Cənubi Qafqaz və Türk dünyasında regional qarşılıqlı əlaqələr arxitekturasının transformasiyasının mühüm göstəricilərindən biri kimi diqqəti cəlb edir".

Məqalənin müəllifi Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünün Cənubi Qafqazda sülh prosesləri üçün yeni imkanlar açan nəticələrinə diqqət çəkib: "2025-ci il avqustun 8-də Ağ Evdə keçirilən danışıqlar Cənubi Qafqazda münasibətlərin gələcəkdə normallaşdırılması və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi üçün siyasi zəmin formalaşdırdı. ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın görüşündə birbaşa iştirakı və Zəngəzur dəhlizinə göstərdiyi maraq yeni marşruta regionun hüdudlarından xeyli kənara çıxan geosiyasi və iqtisadi hesablamalardakı roldan xəbər verir".

O qeyd edir ki, Zəngəzur dəhlizi məsələsi Azərbaycanla Ermənistan arasında dialoq gündəliyinin çərçivəsini aşaraq Cənubi Qafqazın Avrasiya xəritəsində gələcək mövqeyini müəyyən edən əsas amillərdən birinə çevrilib.

Ekspert oxucuların diqqətini Prezident İlham Əliyevin avqustun 11-də Naxçıvana səfəri çərçivəsində səsləndirdiyi bəyanatlara yönəldib: "Azərbaycan Prezidentinin bəyanatları göstərdi ki, Bakının Zəngəzur dəhlizi layihəsinə yanaşması nəqliyyat komponentinin hüdudlarından kənara çıxır. Dəmir yolları və avtomobil yolları ilə yanaşı, layihəyə fiber-optik rabitə infrastrukturu, elektrik cərəyanı xətləri, neft və qazın nəqli üçün boru kəmərlərinin əlavə edilməsi ona çoxsəviyyəli geoiqtisadi xarakter verəcək. Zəngəzur Orta dəhlizin mühüm həlqəsi kimi Azərbaycanın Avrasiyanın nəqliyyat şəbəkələrində mövqeyini möhkəmləndirəcək, eyni zamanda Türkiyənin Asiya ilə Avropa arasında tranzit rolunu daha da gücləndirəcək", - deyə M.G.Özçubukçu vurğulayıb.

Ekspert daha sonra bildirib ki, Türk dünyası baxımından Zəngəzur dəhlizi yalnız Azərbaycanla Türkiyə arasındakı əlaqələri möhkəmləndirməyəcək, həm də Mərkəzi Asiyadan Avropaya qədər uzanan geniş coğrafiyada iqtisadi əlaqələrin şaxələndirilməsinə töhfə verəcək.

"Bilavasitə Cənubi Qafqaz üçün nəqliyyat, enerji və rəqəmsal infrastrukturların inteqrasiyası regional iqtisadi münasibətlərin yenidən qurulmasına yol açır", - deyə o əlavə edib.

# Naxçıvanda şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 68 mənzil təqdim edilib

***Avqustun 19-da Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə yeni mənzillər təqdim edilib.***

***Prezident İlham Əliyevin 2026-cı il 12 avqust tarixli Sərəncamında qeyd edildiyi kimi, Naxçıvan Muxtar Respublikasında şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün daha 68 mənzil ayrılıb.***




Mənzillərin təqdim edilməsi mərasimlərində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev, Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə, həmçinin şəhər və rayon icra hakimiyyətlərinin başçıları iştirak ediblər.

Tədbirlərdə bildirilib ki, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatına Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılıb. Prezident İlham Əliyevin bu kateqoriyadan olan vətəndaşlara göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində sosial müdafiə tədbirləri, o cümlədən mənzil təminatı proqramı ardıcıl şəkildə genişləndirilib. Zəfərlə başa çatan Vətən müharibəsindən sonrakı dövrdə proqramın miqyası beş dəfə artırılıb. Postmüharibə dövründə 7300, ümumilikdə isə indiyədək 16 mindən çox mənzil şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.



Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Avqustun 19-da daha 68 şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi olan şəxs yeni mənzillə təmin olunub. Ümumilikdə isə ötən dövrdə muxtar respublikada bu kateqoriyadan olan vətəndaşlara 400-dək mənzil təqdim edilib.

Təqdim olunan mənzillərin 29-u Naxçıvan şəhərində, 23-ü Şərur rayonunda, digər mənzillər isə Babək, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonlarında inşa edilmiş yeni çoxmənzilli yaşayış binalarında yerləşir.

Mənzillərlə təmin olunan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər göstərilən diqqət və qayğıya, onlar üçün həyata keçirilən sosial dəstək tədbirlərinə və yeni mənzillərlə təmin olunmalarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

* * *

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələrinin, müharibə iştirakçılarının və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan mühüm proqramlardan biri də bu kateqoriyalara aid vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması proqramıdır. Proqram çərçivəsində indiyədək vətəndaşlara 16 mindən çox mənzil təqdim olunub.



Bu sözləri müsahibəsində Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev deyib.

O qeyd edib ki, proqramın davamı olaraq Naxçıvanda keçirilən tədbirdə daha 68 mənzil öz sahiblərinə təqdim olunub. Bununla yanaşı, şəhid ailələri və müharibə iştirakçıları üçün müxtəlif sosial dəstək tədbirləri də davam etdirilir. Müharibə əlillərinin yüksək texnologiyalı protezlərlə və avtomobillərlə təmin olunması, həmçinin reabilitasiya xidmətlərinə cəlb edilməsi istiqamətində işlər aparılır.

"Artıq proqram çərçivəsində 7300-dən çox vətəndaş avtomobillə təmin edilib. Bir daha əmin etmək istərdim ki, bu proqramlar bundan sonra da tam və geniş şəkildə həyata keçiriləcək", - deyə nazir müavini əlavə edib.

* * *

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və genişmiqyaslı tədbirlər həyata keçirilir. Sosial proqramların əsas məqsədlərindən biri vətəndaşların rifahının yaxşılaşdırılması, onların sosial təminatının gücləndirilməsi və məmnunluğunun təmin edilməsidir. Təbii ki, dövlət siyasətinin əsas istiqamətlərindən biri də şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər çərçivəsində Naxçıvanda şəhid ailələri və müharibə iştirakçıları mənzillərlə təmin edilir. Bu gün də həmin kateqoriyalara aid vətəndaşlara 68 mənzil təqdim edilib.

Bu sözləri jurnalistlərə müsahibəsində Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə deyib.



Nazir qeyd edib ki, təqdim olunan 68 mənzilin 29-u Naxçıvan şəhərində, 23-ü Şərur rayonunda, digər mənzillər isə Babək, Culfa, Ordubad, Şahbuz və Kəngərli rayonlarında yerləşən yeni çoxmənzilli yaşayış binalarındadır: "Bildirmək istəyirəm ki, bu gün təqdim olunan 68 mənzil də daxil olmaqla, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 400-ə yaxın mənzil təqdim olunub. Təbii ki, həyata keçirilən bu tədbirlər dövlətin şəhid ailələrinə və müharibə iştirakçılarına göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir. Bu siyasət həmin kateqoriyadan olan vətəndaşların sosial rifahının yüksəldilməsinə və layiqli həyat şəraitinin təmin olunmasına xidmət edir".



* * *

Avqustun 19-da Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə yeni mənzillər təqdim edilib.

Vətən müharibəsinin itkin şəhidi, "Azərbaycan Bayrağı" ordenli İbrahim Vəlizadənin atası Səməd Vəliyev jurnalistlərə müsahibəsində şəhidlərin və qazilərin xatirəsinin daim uca tutulmasının vacibliyini vurğulayıb. Bildirib ki, şəhid ailələrinə, qazilərə və müharibə veteranlarına mənzillərin təqdim olunması dövlətin onlara göstərdiyi diqqət və qayğının növbəti nümunəsidir.

Səməd Vəliyev qeyd edib ki, şəhid ailələri, qazilər və müharibə veteranları daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən tədbirlər Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasətin uğurla davam etdirildiyini göstərir.

Şəhid atası bildirib ki, Azərbaycanın bu gün dünyada öz sözünü deyən güclü dövlət kimi tanınmasında şəhidlərin və qazilərin qəhrəmanlığının, eləcə də dövlətin məqsədyönlü siyasətinin mühüm rolu var. Belə tədbirlər isə şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının dövlət qayğısı ilə daim əhatə olunduğunu bir daha nümayiş etdirir.

Ehtiyatda olan mayor Elçin Allahverdiyev isə qeyd edib ki, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğı dövlət siyasətinin mühüm göstəricilərindən biridir. O bildirib ki, Prezident İlham Əliyevin Naxçıvana son səfərindən sonra muxtar respublikada şəhid ailələri və qazilərin sosial təminatının gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb, DOST Mərkəzi və digər sosial obyektlər istifadəyə verilib.

Mənzillə təmin olunmasının ailəsi üçün böyük sevinc olduğunu deyən Elçin Allahverdiyev yeni evin onların gələcəyə daha böyük ümidlə baxmasına imkan verdiyini vurğulayıb. O, göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

**AZƏRTAC-ın materialları əsasında**

# İstehkam qurğusu - “Kaponir”

Köhnə qalaların müdafiə sistemində xəndək mühüm maneələrdən biri hesab olunurdu. Lakin zaman keçdikcə xəndəyin təkbaşına müdafiə üçün kifayət etmədiyi, onu keçməyə çalışan düşmənə qarşı əlavə atəş vasitələrinin yaradılmasının zəruri olduğu aydınlaşdı. Düşmənin həmin maneəni aşmasına imkan verməmək üçün müdafiəçilər xəndəyi müxtəlif istiqamətlərdən atəş altında saxlamağa çalışırdılar. Kaponir məhz belə bir ehtiyacdan yaranmış istehkam qurğusudur. Bəzi fortifikasiya sistemlərində o, həm də əsas istehkamdan kənardakı qurğulara təhlükəsiz keçidi təmin edən örtülü yol kimi istifadə olunurdu. Qurğunun əsas üstünlüyü müdafiəçilərin nisbətən qorunan mövqedən xəndəyi atəş altında saxlaya bilməsi idi. “Kaponir” sözü hərbi terminologiyada XVII əsrdən etibarən işlədilir. Sonrakı dövrlərdə qalaların quruluşu dəyişdikcə bu qurğuların forması da təkmilləşdirildi. XIX əsrdə, xüsusilə poliqonal tipli qalalarda, kaponirlər daha möhkəm və qorunan konstruksiyalara çevrildi. Onlar xəndəklərin müdafiəsində mühüm rol oynayır, atıcı silahlardan və bəzi hallarda artilleriya vasitələrindən istifadə etməklə düşmənin xəndəyə yerləşməsinin qarşısını alırdı. Kaponirin quruluşu onun yerinə yetirdiyi vəzifəyə uyğun olurdu. Qurğuda atəş yuvaları, atəş pillələri və müdafiəçilərin hərəkəti üçün nəzərdə tutulan keçidlər yerləşdirilirdi. Bəzi kaponirlər tam örtülü olur, dam örtüyü isə qurğunu atəşdən və hava şəraitindən qoruyurdu. Qurğunun mövqeyi elə seçilirdi ki, xəndəyin mümkün qədər böyük hissəsi atəş altında saxlanılsın.

Fortifikasiya texnikasının inkişafı ilə kaponirin forması və konstruksiyası da dəyişdi. Əvvəlki dövrlərin sadə və nisbətən yüngül qurğuları sonrakı mərhələdə daş, kərpic və digər möhkəm materiallardan hazırlanmış daha davamlı istehkamlarla əvəz olundu. Bəzi qalalarda kaponirlər bombalanmadan qorunmaq üçün möhkəm örtüklərlə təmin edilirdi. Kaponirin əsas funksiyası müdafiə olunan istehkamın qarşısındakı xəndəyin düşməndən təmiz saxlanılması idi. Xəndəyə daxil olan və ya orada mövqe tutmağa çalışan düşmən bölmələri ka-




ponirdən açılan cinah atəşi ilə qarşılanırdı. Beləliklə, hücum edən tərəfin istehkam divarlarına yaxınlaşması və müdafiə xəttinə keçid əldə etməsi çətinləşdirilirdi.

Müasir hərbi mühəndislikdə texnikanın və şəxsi heyətin qorunması üçün müxtəlif tipli örtülü və möhkəmləndirilmiş mövqelərdən istifadə edilir. Tanklar, artilleriya sistemləri və digər döyüş texnikası üçün hazırlanan mövqelər onların ölçülərinə, relyefə və qarşıya qoyulan tapşırığa uyğun qurulur. Lakin bu cür sahə mövqelərini tarixi fortifikasiya qurğusu olan kaponirlə eyniləşdirmək düzgün deyil. Müasir hərbi texnika üçün müxtəlif növ səngər, atəş mövqeyi, örtülü mövqe və mühəndis qurğularından istifadə olunur.

Eyni yanaşma hərbi aviasiyaya da aiddir. Aerodromlarda döyüş təyyarələrinin və helikopterlərin qorunması üçün möhkəmləndirilmiş aviasiya sığınacaqları yaradılır. Bu qurğuların vəzifəsi aviasiya vasitələrini düşmənin hava zərbələrinin təsirindən qorumaq, onların sıradan çıxarılması ehtimalını azaltmaqdır. Lakin bu tip müasir aviasiya sığınacaqlarının hamısını “kaponir” adlandırmaq terminoloji baxımdan düzgün yanaşma sayılmır. Kaponirin hərb tarixində tutduğu yer göstərir ki, mühəndis istehkamları döyüşdə yalnız maneə yaratmaq üçün deyil, həm də müdafiə vasitələrinin imkanlarını artırmaq üçün qurulub. Düzgün seçilmiş mövqe və möhkəm istehkam müdafiəçiyə atəş üstünlüyündən daha səmərəli istifadə etməyə imkan verirdi.

Bu gün “kaponir” dedikdə, ilk növbədə, fortifikasiya tarixində qala xəndəyinin müdafiəsi üçün yaradılmış, cinah atəşi aparmağa imkan verən istehkam qurğusu nəzərdə tutulur. Onun yaranması və inkişafı hərbi mühəndisliyin keçdiyi uzun yolun nümunələrindən biridir. Qala xəndəklərində qurulan bu istehkamlar öz dövrünün müdafiə sistemində mühüm yer tutub.

**Hazırladı:**
**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

## *Hərbi hüquq*

### Hərbi qulluqçuların hüquqları və vəzifələri

**II bölmə**

**Maddə 22. Təklif, ərizə və şikayət hüququ**

**1.** Hərbi qulluqçular dövlət orqanlarına, ictimai təşkilatlara və birliklərə, hərbi idarəetmə orqanlarına təkliflər göndərmək, ərizələr vermək, habelə vəzifəli şəxslərin, dövlət orqanlarının, ictimai təşkilatların və birliklərin, hərbi idarəetmə orqanlarının, habelə vətəndaşların (o cümlədən hərbi qulluqçuların) hüquqa zidd hərəkətləri barəsində müəyyən edilmiş qaydada şikayət etmək hüququna malikdirlər.

**2.** Müəyyən olunmuş təminatın qane etməməsi, hərbi qulluqçular barəsində komandirlərin (rəislərin) və ya başqa hərbi qulluqçuların qanunsuz xidməti sərəncamları (hərəkətləri) barəsində, hərbi-xidmət münasibətlərinin başqa məsələləri barəsində şikayətlər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrində nəzərdə tutulan qaydada verilir, nəzərdən keçirilir və həll edilir.

Hərbi qulluqçular hərbi vəzifəli şəxslərin və hərbi idarə orqanlarının qərar və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilərlər.

**3.** Şikayət verilməsinə mane olmaq və buna görə şikayət verəni cəzalandırmaq və ya təqib etmək qadağandır. Bunda təqsiri olanlar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyətə cəlb edilirlər.

Şikayət verərkən qəsdən yalan məlumatlar yazmış və ya böhtan atmış hərbi qulluqçu Azərbaycan Respublikasının qanunvericiliyinə. müvafiq surətdə məsuliyyət daşıyır.

**4.** Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətləri (təklifləri, ərizələri, şikayətləri) daxil olduğu gündən etibarən ən geci 15 iş günü ərzində baxılır.

## Xəbərlər: hadisələr, faktlar

**Rusiya ordusu Çernomorsk limanında iki yük gəmisini vurub**



Rusiya Silahlı Qüvvələri Çernomorsk limanında Ukrayna üçün sursat və hərbi texnika daşıyan iki quru yük gəmisinə zərbə endirib.

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, gün ərzində həyata keçirilən hücumlar nəticəsində gəmilərlə yanaşı, Ukrayna Silahlı Qüvvələrinin təminatı üçün nəzərdə tutulan yanacaq və sürtkü yağları ilə dolu çən də məhv edilib.

**Peruda 6,6 maqnitudalı zəlzələ baş verib**



Peruda 6,6 maqnitudalı zəlzələ baş verib.

Bu barədə Avropa-Aralıq dənizi Seysmoloji Mərkəzi məlumat yayıb.

Məlumata görə, zəlzələnin episentri Korakora şəhərindən 50 kilometr şimal-şərqdə, ocağı isə 73 kilometr dərinlikdə yerləşib.

Dağıntılar və zərərçəkənlər barədə məlumat daxil olmayıb.

**AZƏRTAC-ın materialları əsasında**

## İdman

**“Qarabağ” Niderlandda "Tvente"ni minimal hesabla məğlub edib**



UEFA Konfrans Liqasında Niderlandda üz-üzə gələn "Tvente" və “Qarabağ” komandaları arasında pley-off mərhələsinin ilk oyunu başa çatıb.

Ensxede şəhərindəki “Qrols Veste” stadionunda keçirilən matç Ağdam təmsilçisinin minimal hesablı qələbəsi ilə yekunlaşıb -1:0. Yeganə qolu 52-ci dəqiqədə Kadi Borges vurub.

Komandalar arasında cavab görüşü isə avqustun 27-də Bakıda təşkil olunacaq.

**Mahir Emreli “Rakuv”da 3-cü qolunu vurub**




Azərbaycan millisinin futbolçusu Mahir Emreli Polşanın “Rakuv” klubunda növbəti dəfə fərqlənib.

29 yaşlı hücumçu UEFA Konfrans Liqasının pley-off mərhələsində Xorvatiyanın “Hayduk” komandasına qarşı keçirilən səfər oyununda komandasının bərabərlik qolunu vurub.

Mahir Emreli start heyətdə meydana çıxıb və görüşün 27-ci dəqiqəsində rəqib qapısına yol tapıb.

Hazırda davam edən qarşılaşmanın ilk hissəsində hesab 1:1-dir.

Bu, Azərbaycan millisinin hücumçusunun “Rakuv”un heyətində 3-cü qolu olub.

**“Gəncə” klubu ABŞ-dən olan basketbolçunu transfer edib**



“Gəncə” basketbol komandası daha bir basketbolçunu heyətinə qatıb.

ABŞ-dən olan Bakari Kamara mövsümün sonuna kimi qərb təmsilçisində çıxış edəcək. Hücumçu mövqeyində oynayan Kamara 2,01 metr boya malikdir.

28 yaşlı basketbolçu müxtəlif vaxtlarda İspaniya, Danimarka və Fransada çıxış edib.

Qeyd edək ki, basketbolçunun son klubu Qətər təmsilçisi "Əl-Vakra" olub.

**Ferstappen “Red Bull” komandası ilə müqaviləsinin müddətini uzadıb**



Formula 1 üzrə dördqat dünya çempionu Maks Ferstappen “Red Bull” komandası ilə yeni müqavilə imzalayıb.

Bu barədə Avstriya komandasının rəsmi saytı məlumat yayıb.

Niderlandlı pilotla sözləşmənin müddəti 2030-cu il mövsümünün sonuna qədərdir. O, 2026-cı ildə Formula 1-də tətbiq olunan yeni güc qurğuları qaydalarının qüvvədə olduğu bütün müddət ərzində “Red Bull”un heyətində qalacaq.

Qeyd edək ki, Ferstappen 2016-cı ildən “Red Bull” komandasında çıxış edir. Pilot karyerası ərzində dörd dəfə Formula 1 üzrə dünya çempionu olub. O, 2026-cı il mövsümündə isə pilotların şəxsi reytinqində 6-cı yerdə qərarlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Əli ABIYEV | Lisenziya № 361 Sifariş № 714 Nüsxə 3653 |